Ermənilər Bakıya gəlməkdən imtina etdi

Yazan
10.10.14 17:08 -



“Ermənistan və Ukrayna MDB-nin Bakıda keçiriləcək turizm və mədəniyyətlə bağlı sammitinə qatılmayacaq”.

AzNews.az xəbər verir ki, bu barədə xəbəri qurumun katibi Konstantin Pşenko deyib. Katibin sözlərinə görə, Ukrayna 26 oktyabr parlament seçkiləri ilə əlaqədar olaraq Bakıdakı tədbirdə iştirak etməyəcəyini bildirib. Katib daha sonra ermənilərin də Bakıdakı tədbirə qatılmayacağını bildirib:

“Ermənistan tərəfi Bakıda keçiriləcək tədbirdə iştirak etməyəcəyini deyib. Onlar bunun üçün heç bir səbəb göstərməyib. Azərbaycan tərəfi erməni nümayəndələrinin Bakıya edəcəyi səfəri zamanı onların təhlükəsizliyinə təminat verə biləcəyini açqıqlamışdı”.